**AZƏRBAYCAN RESPUBLİKASI**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**SƏRƏNCAMI**

**№** 29                                     11 mart **2021-ci il**

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 2020-ci ildəki fəaliyyətinə dair hesabata həsr olunmuş Şura iclasında irəli sürülmüş rəy və təkliflərin, qeyd edilmiş nöqsan və çatışmazlıqların, tənqidi qeydlərin icrası ilə əlaqədar tədbirlər haqqında**

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 2020-ci ildəki fəaliyyətinə dair hesabatın nəticələrinə və Şura iclasının tövsiyələrinə əsasən "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 2.14-cü bəndinə əsaslanaraq

**Qərara alıram:**

1. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 2020-ci ildəki fəaliyyətinə dair hesabatına həsr olunmuş Şura iclasında irəli sürülmüş rəy və təkliflərin, qeyd edilmiş nöqsan və çatışmazlıqların tənqidi qeydlərin icrası ilə əlaqədar "Tədbirlər Planı" təsdiq edilsin. (əlavə olunur)
2. Rayon İcra Hakimiyyəti başçısının müavinləri- İlqar Süleymanov, Vüsar İsmayılov, Sevinc Süleymanovaya və Rayon İcra Hakimiyyəti başçısı Aparatının şöbə müdirlərinə tapşırılsın:
   - Tədbirlər planının icrası ilə əlaqədar aidiyyəti strukturlar və vəzifəli şəxslər arasında əlaqələndirmə işlərini təşkil etsinlər;
   - Tədbirlər planının icrasını nəzarətə götürsünlər və görülmüş işlərin nəticəsi barədə rübdə 1 dəfədən az olmayaraq Rayon İcra Hakimiyyəti başçısına məlumat versinlər.
3. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

**Əsli ilə düzdür:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**      **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

**Binəqədi RİH-in başçısının**
**"11" mart 2021-ci il tarixli 29 nömrəli**
**Sərəncamı ilə təsdiq olunmuşdur**

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 2020-cu ildəki fəaliyyətinə dair hesabata həsr olunmuş Şura iclasında irəli sürülmüş rəy və təkliflərin, qeyd edilmiş nöqsan və çatışmazlıqların, tənqidi qeydlərin icrası ilə əlaqədar**

## TƏDBİRLƏR PLANI

| S/s | Tədbirin adı | Məsul müəssisə və təşkilatlar | Məsul şəxslər | İcra müddəti |
|---|---|---|---|---|
| 1. | Rayon İcra Hakimiyyətinə daxil olmuş müraciətlərə əsasən "Vətən müharibəsi"ndə iştirak etmiş qazilərin həmçinin şəhid ailələrinin problemlərinin həlli istiqamətində zəruri tədbirlərin görülməsi | Binəqədi RİH | İ.Süleymanov<br>V.İsmayılov<br>S.Süleymanova<br>İ.Cahangir-zadə<br>Y.Əliyev<br>N.Allahverdiyev<br>Y.Hüseynov<br>A.Kərimov<br>S.Əliyev | |
| 2. | Məşğulluğa kömək göstərən yerli əlaqələndirmə komitəsinin işini davam etdirərək qeyri-rəsmi məşğulluğun qarşısının alınması istiqamətində komitənin səlahiyyətləri daxilində zəruri tədbirlər | Binəqədi RİH, Binəqədi Rayon Məşğulluq Mərkəzi | V.İsmayılov<br>Yəhya Əliyev<br>S.Məmmədzadə | İl ərzində |

| | | | | |
|---|---|---|---|---|
| | həyata keçirilməsi | | | |
| 3. | Qeyri-məşğul əhalinin ödənişli əsaslarla ictimai faydalı əməyə və özünəməşğulluq proqramına cəlb edilməsi işlərinin aparılması | Binəqədi RİH, Binəqədi Rayon Məşğulluq Mərkəzi | V.İsmayılov<br>Yəhya Əliyev<br>S.Məmmədzadə | İl ərzində |
| 4. | Rayon ərazisində fəaliyyət göstərən orta və iri sahibkarların istehsal sahələrini genişləndirilməsi məqsədilə həyata keçiriləcək layihələrə zəruri köməkliklərin göstərilməsi | Binəqədi RİH | İ.Süleymanov<br>V.İsmayılov<br>Y.Əliyev | İl ərzində |
| 5. | Rayon ərazisində fəaliyyət göstərən sənaye müəssisələrinin rəhbərləri ilə mütəmadi görüşlər keçirərək, fəaliyyət prosesində onları narahat edən problemlərin həlli istiqamətində tədbirlərin görülməsi | Binəqədi RİH | V.İsmayılov<br>Y.Əliyev | İl ərzində |
| 6. | Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2018-ci il tarixli, 199 nömrəli Sərəncamının icrası ilə əlaqədar sahibkarlıq subyektlərini cəlb etməklə baytarlıq-sanitariya və sanitariya-gigiyena tələblərinə uyğun müasir heyvan kəsimi məntəqələrinin yaradılması və qanunsuz heyvan kəsimi məntəqələrinin yığışdırılması istiqamətində zəruri tədbirlərin görülməsi | Binəqədi RİH | V.İsmayılov<br>Y.Əliyev | İl ərzində |
| 7. | Rayon ərazisində yaşayan vətəndaşların narazılığına səbəb olan marşrut xətləri ilə əlaqədar problemlərin həll olunması istiqamətində aidiyyəti qurumlarla birlikdə tədbirlərin görülməsi | Binəqədi RİH, QİƏD, SİƏD | V.İsmayılov<br>Yəhya Əliyev<br>D.Şükürova<br>M.Məmmədov<br>Z.Qafarov<br>F.Cəfərov<br>Q.Məmmədov<br>T.Abdullayev | İl ərzində |

| | | | | |
|---|---|---|---|---|
| | | | N. Məmmədov | |
| 8. | Rayon ərazisində ekoloji vəziyyətin yaxşılaşdırılması və ətraf mühitin qorunması məqsədilə yaşayış məntəqələrində əhali tərəfindən xaric olan bərk məişət tullantılarının vaxtında daşınması və yarana biləcək antisanitar vəziyyətin qarşısının alınması və bu istiqamətdə mövcud olan çatışmazlıqların aradan qaldırılması ilə bağlı zəruri tədbirlərin görülməsi. | Binəqədi RİH, Binəqədi MKTB, Bələdiyyələr | İ.Süleymanov<br>A.Kərimov<br>M.Eminov<br>R.İsayev<br>H.Hüseynov<br>N.Məmmədov<br>E.Zamanov | İl ərzində |
| 9. | Daşınmaz əmlakın icbari qaydada sığortalanması sahəsində əhalinin maarifləndirilməsi və sığorta işinin təşkili məqsədi ilə Sahə İnzibati Ərazi Dairə nümayəndələri, bələdiyyələr, MKİS-lər və sığorta şirkətləri ilə koordinasiyalı işlər qurulması. | | V.İsmayılov<br>Yəhya Əliyev | İl ərzində |
| 10. | Rayon ərazisində əhalinin içməli su təchizatının yaxşılaşdırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi | Binəqədi RİH, Sukanal idarəsi | A.Kərimov<br>E.Əliyev | İl ərzində |
| 11. | Rayon ərazisində əhalinin qaz təchizatının yaxşılaşdırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi | Binəqədi RİH, Bakı Regional Qaz İstismar Departamentinin Binəqədi rayonu üzrə texniki istismarı xidməti | A.Kərimov<br>R.Qafarov | İl ərzində |
| 12. | Rayon ərazisində əhalinin elektrik enerjisi təchizatının yaxşılaşdırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi | Binəqədi RİH, kommunal xidmət təşkilatları | A.Kərimov<br>P.Rzayev | İl ərzində |
| 13. | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 yanvar 2016-cı il tarixli 8 saylı "Bakı şəhəri, Binəqədi və Qaradağ rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər barədə" Qərarı ilə "Pilot layihə" formatında rayon ərazisində | Binəqədi RİH, | İ.Süleymanov<br>A.Kərimov | İl ərzində |

| | | | | |
|---|---|---|---|---|
| | şəhərsalma və tikinti qanunvericiliklərinin tələblərinə əməl etməklə qəzalı vəziyyətdə olan və mövcud şəhərsalma normalarına cavab verməyən yaşayış binalarının sökülərək, sakinlərin mənzil-məişət şəraitinin yaxılaşdırılması məqsədilə müasir üslubda yeni yaşayış binalarının tikintisi tədbirlərinin davam etdirilməsi. | | | |
| 14. | Xocəsən və Sulutəpə qəsəbələrində məktəb, uşaq bağçası və poliklinika tikintisi üçün Saziş ərazisinə düşən lakin neft çıxarılması üçün perspektivi olmayan ərazilərdən torpaq sahəsinin ayrılması ilə əlaqədar tədbirlərin görülməsi; | Binəqədi RİH | İ.Süleymanov<br>V.İsmayılov<br>A.Kərimov<br>İ.Cahangir-zadə<br>Y.Əliyev<br>N.Allahverdiyev | İl ərzində |
| 15. | Rayonun mikrorayonlarında, qəsəbələrində, yol kənarlarının, nümunəvi məhəllələrin, məhəllədaxili yolların, piyada səkilərinin və ictimai yerlərin tam işıqlandırılması istiqamətində tələb olunan zəruri tədbirlərin görülməsi | Binəqədi RİH | İ.Süleymanov<br>A.Kərimov | İl ərzində |
| 16. | Rayon ərazisində yerləşən çoxmənzilli yaşayış binalarında lift təsərrüfatının yenilənməsi, cari və əsaslı təmiri edilməsi ilə əlaqədar tədbirlərin görülməsi; | Binəqədi RİH, Binəqədi MKTB | İ.Süleymanov<br>A.Kərimov<br>E.Zamanov | İl ərzində |
| 17. | M.Ə.Rəsulzadə qəsəbəsi, Zahid Qəmbərov küçəsində yerləşən 5 ədəd çoxmərtəbəli binanın istilik sistemlərinin və əvvəllər bu binalara xidmət etmiş qazanxana binasında qazanxananın bərpası və həmin binaların istiliklə təchizatı ilə əlaqədar tədbirlərin görülməsi | Binəqədi RİH, 3 saylı İSİS, Binəqədi MKTB | İ.Süleymanov<br>A.Kərimov<br>E.Zamanov<br>R.Tağıyev | il ərzində |

| | | | | |
|---|---|---|---|---|
| 18. | Binəqədi qəsəbəsi, I Mədən ərazisində su xəttinin çəkilişi; | Binəqədi RİH | İ.Süleymanov<br>V.İsmayılov<br>A.Kərimov | 1-ci yarımil |
| 19. | Rayonun qəsəbə və mikrorayonlarının ərazisində "Abad məhəllə"lərin və nümunəvi həyətlərin salınması; | Binəqədi RİH | İ.Süleymanov<br>A.Kərimov<br>E.Zamanov | İl ərzində |
| 20. | Əhaliyə göstərilən tibbi xidmət zamanı səhiyyə müəssisələrində ortaya çıxan problemlərin həllinə öz səlahiyyətləri dairəsində zəruri köməkliklərin göstərilməsi. | Binəqədi RİH | S.Süleymanova<br>N.Allahverdiyev | Mütəmadi |
| 21. | Rayonda yeniyetmə və gənclər arasında ideoloji vətənpərvərlik işinin təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi; | Binəqədi RİH və Binəqədi Gənclər və idman idarəsi | S.Süleymanova<br>N.Allahverdiyev<br>N.Tarverdiyev | Mütəmadi |
| 22. | COVİD 19 əleyhinə vaksinasiya ilə əlaqədar Rayon ərazisində fəaliyyət göstərən səhiyyə müəssisələri ilə koordinasiyalı iş qursunlar və əldə olunan məlumatları müəyyən olunmuş müddətlərdə mərkəzi icra hakimiyyəti orqanlarına ötürülməsini təmin etsinlər; | Binəqədi RİH<br>Binəqədi GEM | S.Süleymanova<br>N.Allahverdiyev<br>F.Hacıyev | Mütəmadi |
| 23. | "Nizami ili" çərçivəsində böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr olunmuş silsilə tədbirlərin keçirilməsi | Binəqədi RİH | İ. Süleymanov,<br>V.İsmayılov<br>S.Süleymanova | "Nizami ili" çərçivəsində böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr olunmuş |

| | | | | |
|---|---|---|---|---|
| | | | | silsilə tədbirlərin keçirilməsi |
| 24. | Ümumtəhsil məktəblərinin və məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətində (COVİD 19) əlehinə profilaktik tədbirlərin keçirilməsinin təmin edilməsi | Binəqədi RİH<br>Binəqədi GEM | S.Süleymanova<br>N.Allahverdiyev<br>F.Hacıyev | il ərzində |
| 25. | Gənclər arasında yaradıcı mühitin formalaşdırılmasına köməklik göstərilməsi və gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi istiqamətində davamlı silsilə tədbirlərin görülməsi; | Binəqədi RİH və Binəqədi Gənclər və idman idarəsi | S.Süleymanova<br>N.Allahverdiyev | Mütəmadi |
| 26. | Rayon ərazisində ictimai nəzarətin gücləndirilməsi məqsədi ilə ictimai şura, vətəndaş cəmiyyəti institutları və nüfuzlu şəxslərlə birgə koordinasiyalı işin təşkili, əhali ilə görüşlərin keçirilməsi. | Binəqədi RİH, ictimai şura, QHT-lər | S.Süleymanova<br>N.Allahverdiyev | il ərzində |
| 27. | Sosial şəbəkələrdə işin təkmilləşdirilməsi istiqamətində tədbirlərin görülməsi, KİV-lərlə əməkdaşlığın genişləndirilməsi. | Binəqədi RİH | S.Süleymanova<br>N.Allahverdiyev<br>A.Quliyeva | il ərzində |
| 28. | Rayon əhalisinə göstərilən xidmətlərin vəziyyətini, həmçinin Sakinlərin Müraciət Xidməti-1646 vasitəsilə daxil olmuş kommunal problemlərlə bağlı müraciət və şikayətlərin operativ həllinin mütəmadi nəzarətdə saxlanılması | Binəqədi RİH, Binəqədi Rayon MKTB | İ.Süleymanov<br>A.Kərimov<br>A.Səfərov<br>E.Zamanov | Mütəmadi |